**UOT 008**

**Tamilla Hikmət qızı Əhmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: tamillahikmetqizi@mail.ru**

# BİTNİK SUBMƏDƏNİYYƏTİN TİPOLOJİ ƏSASLARI

**Xülasə:** Gənclər submədəniyyətlərin tipoloji əsaslarını bir çox elm sahələri tədqiq edir: sosiologiya, pedaqogika, fəlsəfə, hüquq, psixologiya, sosial iş, sənətşünaslıq, kulturologiya. Humanitar bilik sahəsi gənclər submədəniyyətlərin bu problemləri tədqiq edir: Submədəniyyətlərin gənclərin sosiallaşmada rolu, gənc- lər submədəniyyətlərin tiplərə görə təsnif etmə, gənclər submədəniyyətlərin fəlsəfi əsasları, yəni hər submədəniyyətin sələfləri və xələfləri, özünü müəyyənetmə ontologiyası, aksiologiyası, təşəkkülü, sosial mədəni məkana inteqrasiyası, tənəzzül səbəbləri və s. submədəniyyətlərin inkişaf təmayülləri, gənclər submədəniyyətlərin müxtəlif formalarının legitimləşməsi, magistral mədəniyyətə inteqrasiyası, ənənəvi dəyərlər və kontrmədəniyyət, gənclər submədəniyyətlərin bədii ifadəsi, kriminal submədəniyyətlərə profilaktika və müqavimətin yolları, sosial idarəetmə sistemində gənclər submədəniyyətləri, gənclər submədəniyyətləri ilə pedaqoji iş, Gənclər siyasətində gənclər submədəniyyətlərin yeri, gənclər submədəniyyətlərin infoqrafika, ikonoqrafika, sosiosemiotika əsasları və s. məqalədə bitniklər submədəniyyətin tipoloji əsasları tədqiq edilir. Bitnik cərəyanın nümayəndələrin irsi təhlil edilir.

**Açar sözlər:** Kontr-Mədəniyyət Konsepsiyası, Gənc subkultural birliklər, bitniklər, Keruak

XX əsrin əvvəllərindən bu günə kimi gənclər submədəniyyətləri Qərb ölkələrində əhəmiyyətli yer tutur. Müvafiq fenomenin təhlilinə diqqət yetirməmək, cəmiyyətin sosial dinamika qanunauyğunluqları qeyri-düzgün müəyyənetmə təhlükəsini yaradır. Gənclər submədəniyyətlərinə Qərb ölkələrində sənətşünaslıq, sosiologiya, sosial iş, fəlsəfə, mədəniyyət fəlsəfəsi, etnologiya, antropologiya, politologiya, konfliktologiya, hüquq kimi elmlərə fundamental tədqiqatlar həsr olunub. Gənclər submədəniyyətlərin tədqiqatını əhatə edən əsas məsələləri qeyd edək:

– Submədəniyyətlərin gənclərin sosiallaşmada rolu;

– Gənclər submədəniyyətlərin tiplərə görə təsnif etmə;

– Gənclər submədəniyyətlərin fəlsəfi əsasları, yəni hər submədəniyyətin sələfləri və xələfləri, özünü müəyyənetmə ontologiyası, ekzistensiyası, aksiologiyası, təşəkkülü, sosial mədəni məkana inteqrasiyası, tənəzzül səbəbləri və s.;

– Submədəniyyətlərin inkişaf təmayülləri;

– Gənclər submədəniyyətlərində müxtəlif formaların legitimləşməsi, magistral mədəniyyətə inteqrasiyası;

– Ənənəvi dəyərlər və kontrmədəniyyət;

– Gənclər submədəniyyətlərin bədii ifadəsi;

– Kriminal submədəniyyətlərə profilaktika və müqavimətin yolları;

– Sosial idarəetmə sistemində gənclər submədəniyyətləri;

– Gənclər submədəniyyətləri ilə pedaqoji iş;

– Gənclər siyasətində gənclər submədəniyyətlərin yeri;

– Gənclər submədəniyyətlərininin foqrafika, ikonoqrafika, sosiosemiotika əsasları və s.

Azərbaycanda hal-hazırda gənclərin submədəniyyətlərin məhz milli, lokal xarakterli tiplərlə yanaşı, mənşəyinə görə, əsasən vestern mədəniyyətinə məxsus olan submədəniyyətlər mövcuddur. Lakin hər hansı gənclər submədəniyyəti mütləq öz kökündə bir çox ənənələrin sintezi nəticəsində yaranır. Əgər XX əsrin əvvəllərində ABŞ gənclər submədəniyyətlərinə birbaşa ünsiyyətdə olan emiqrant Avropa və Rusiya (italyan, yəhudi və s.) mədəniyyəti nüfuz edib, 40-60-cı illərdə isə Uzaq Şərq, Latın Amerikası və Afrika ideoloqların nəzəriyyələri təsir etmişdir. Məsələn, tədqiq etdiyimiz bitniklər submədəniyyətinin aksiologiyasında dzen buddizm dini fəlsəfi dünyagörüşü əsaslı təsir etmişdir. Qeyd etdiyimiz kimi, bu mədəni təsirlər heç də kortəbii deyildi. Ümumiyyətlə qərb sentrizm liberal-xristian ideologiyasının təkəbbürünə, onun homogen strukturuna əsaslı ilk zərbələrdən dünya sivilizasiyaların əbədi ədəbiyyatın qərb dillərinə tərcüməsi, Qərb universitetlərində oriyentalistika, afrikanistika və s. biliklərin tədris edilməsi və beləliklə intellektuallar arasında yayılması rolu olmuşdu. Eyni zamanda, müstəmləkə ilə mübarizə aparan bir çox ölkələrin milli elita təbəqəsi öz milli maddi və mənəvi mədəniyyətini Qərbdə populyarlaşma vasitəsi ilə doğma ölkəsi üçün müstəqillik qələbəsinin təkanverici qüvvəsinə inanırdılar. İlk çağlarda belə mübarizə üsulu sadəlövh hesab edilsə belə, tarix bu mübarizə metodunun reallığını sübut etmişdir. Bit cərəyanın əsasında duran yazıçıların ədəbi irsinə fikir verək: Keruak “Dharma səfilləri”, “Yolda”, “Tənhalıq mələkləri” əsərləri, Allen Qinsberq poeziyası, Berrouz “Canki”, “Çılpaq qəhvəaltı” əsərləri və s.

Bitnik submədəniyyəti Nyu-Yorkda XX əsrin 40-cı illərin sonunda yaranmışdır. Birinci Dünya müharibəsi dövrünə təsadüf edən gənclərin həyatı itirilmiş nəsil (The Lost Generation) adlanırdı, İkinci Dünya müharibəsi və post müharibə dövrü gənclərin durumu dağıdılmış, məhv edilmiş (The Beat Generation) nəsil adlanırdı. Cərəyanın ən tanınmış nümayəndəsi C.Keruakbitnik anlayışın izahını – səfil, yazıq,

avara və eyni zamanda bəxtiyarı pak, müqəddəs kimi açıqlayırdı. Bitnik submədəniyyəti daha çox ədəbiyyatda: Qinzberq, Keruak, Berrouz, Xolms, Qerri Snayder, Qreqori Korso və s. bədii ifadəsini tapmışdır. Bitnik submədəniyyətinə caz musiqi temp və ritmlərin təsiri önəmli idi. Bitnik submədəniyyətin üsyanı o dövr Amerika ənənəvi mədəniyyətin ideallarına qarşı idi. Bazar iqtisadiyyatının inkişafına təkan verən ideal "Amerikan arzusu" – bir neçə mərtəbəli kottec, nüfuzlu iş yeri, yeni, daima dəyişən, bahalı avtomobil, məişət texnikası, geyim və s. ibarət istehlak cəmiyyətin dəyərləri bit submədəniyyəti üçün azadlıqdan qaçış, yeni köləlik demək idi. Bu submədəniyyətin gəncləri etirazını nonkomformizm, narkotik maddələr ilə eksperimentlər, bəzən kriminala aparan asosial davranış, qeyri-ənənəvi dini inamlara (əsasən buddizm) ibadət, səfillik və avara həyat tərzi, qeyri-ənənəvi cinsi əlaqələr, bohema asudə vaxtı və həyat tərzi ilə bildirirdilər. Yəni bitniklər üçün istehlakçı cəmiyyətin ideal üzvü olmaq naminə kredit köləsinə çevrilmək ideyası tam yad idi. Erix From, Marşal Maklyuen, Frensis Fukuyama, Jan Bodriyar, Henri Markuze kimi filosoflar bazar iqtisadiyyatının istehlakçı ideologiyasına qarşı çıxaraq, hesab edirdilər ki, insan istehlakçı təbliğat nəticəsində, əsl ləyaqətini əşyalar aləmi ilə əvəz edir. Yəni nekrofiliyaya düçar olaraq, öz əhəmiyyətini insani keyfiyyətlər əvə-zinə, maddi dəyərlərin nə dərəcədə hakim olması ilə müəyyən edir. Konformizm cəmiyyətin məhsulu olan insan kütləsi yeni təhlükə yaradan totalitar rejimlərin yaranmasına müqavimət yarada bilməz. Belə ki, konformizm ideologiyasına üsyan edən bitniklər, nonkomformizm, kontr mədəniyyət yaratmışdılar. Bildiyimiz kimi hər gənclər submədəniyyətin fərq bildirən əlamətləri: semiotika, aksiologiya, asudə vaxt, jarqon, görüş məkanları və geyimdir. Bitniklər yaranmasının erkən dövrdə dəb fərqləri qeyri-müəyyən olsa belə, sonrakı mərhələdə səciyyəvi cəhətlər qabarıq bilinir: qara uzunboğaz, toxunma yun köynək, uzun saç, beret, qara eynək, ağ mayka. Bitniklərın dəb imicinə təsir edən o dövr Nyu-York İncəsənət Akademiyasının tələbələrinin geyim zövqləri, caz musiqiçi Dizzi Qillespinin dəb imici idi. Sonralar bitniklər geyim tərzi, xüsusən qara rənglərə üstünlük vermə, qotlar submədəniyyətinə təsir etmişdir. Eyni zamanda səfil bitniklərın sənəmə çevrilmiş arxa çanta, yəni rükzaq, hippi submədəniyyətin imicinin tərkib hissəsi oldu. XX-XXI əsrlərin sərhədlərində modelyer İv Sen Loran, dizayner Mark Ceykobs və bir çox tanınmış media şəxsiyyətləri bitniklər dəb zövqlərin renessansına səbəb olmuşdu. Bitniklər cərəyanına nüfuz edən Keruak irsinə nəzər salaq. Keruak bitniklər submədəniyyətin əsasında duran şəxsiyyətlərdən biridir. Gənclik illərində o idman karyerası vasitəsi ilə maddi rifaha, universitet təhsilinə yiyələnmək niyyətində idi. Lakin idman məşqi zamanı travma alaraq, daha futbol ilə məşğul ola bilmədi və nəticədə universitet təqaüdündən məhrum olaraq, Keruak məcburən təhsilini tamamlamadı.

İntellektual-bədii elitar dairələrə yaxınlaşaraq, Keruak bu təbəqənin buddizm, sadələşmə, "arxa çanta inqilabı" (back pack revolution) ideyaları ilə bəhrələnir və öz həyat və yaradıcılığında həmin ideyalara sadiq qalır.

Jan Lui Lebri de Keruak 1922-ci ildə anadan olmuşdu. Ədəbi yaradıcılığa gənc yaşlarından başlayan Keruak, zəngin irs qoymuşdu: 20 kitab, 4 məcmuə şeir, hekayə, esse, ədəbi deklarasiya və s. Keruakın yaradıcılığı əsasən avtobioqrafik xarakter daşıyırdı. Keruak yaradıcılığı vaxtı ilə ziddiyyətli tənqidə məruz qalmışdı: bir tərəfdən əsərləri və özü ədəbiyyat əhdi, tarixi hadisə, yeni Heminquey adlanırdı, digərləri isə yazıçını cəhalət, populizm, primitivizm, xarakter və qəhrəman seçimində nadürüst qiymətlənmədə tənqid edirdilər. Müasir dövrdə isə Keruak başqa bitnik cərəyanın baniləri ilə yanaşı, dünya intellektual ədəbiyyatın klassiki hesab edilir. 1961-ci ildə "Xarabalıq mələkləri" əsəri bitnik fəlsəfəsinin nəticə izahı kimi qiymət vermək olar. Səfil – sərgərdan həyat tərzinin fəlsəfəsi və estetikasını ədəbiyyat vasitəsi ilə mədəniyyətinə gətirmək məhz Keruakın yaradıcılığı təsir etmişdir. Keruak əsərlərinin qəhrəmanlarının daimi avara həyatı heç də sosial iqtisadi səbəbdən deyil. Vaxtı ilə Çikaqo Universitetinin tədqiqat obyekti olan gənclər submədəniyyətin ilk dalğasından fərqli olaraq, bitniklərin daim yolda olub, səfillikdən zövq alıb, sosial ətrafa üsyan etmək, maddi dəyərlər naminə azadlığı qurban vermək ideologiyasına qarşı meydan oxumaq iradəsinin ifadəsi idi. Qabarıq desək, XX əsrin əvvəllərində Qərb submədəniyyətlərin gəncləri magistral mədəniyyətə inteqrasiyası istəyi olsa da belə, imkanları yox idi, 60-cı illərin üsyankar gənclərin cəmiyyətə inteqrasiya imkanları daha əlverişli idi, cəmiyyət və submədəniyyətlər arasında dəyərlərin barışmaz ziddiyyətləri mövcud idi. Cəmiyyətdən qaçış üsyankar gənclər üçün etiraz yeganə əl çatan üsul idi. Belə ki, gənclər submədəniyyətlərin üsyanı, cəmiyyətdə olan konformizm və non konformizm arasında mübarizə idi və bitniklər submədəniyyəti, onların bədii ifadəsi kontrmədəniyyətin əsasında durub.

C.Keruak "Qeyri-mütəşəkkil poeziyanın əsasları" əsərində "həyatın müqəddəsliyini qorumaq, inanmaq, biganə dünyada yaşayan şəxsiyyəti mədh etmək gərəkdir" humanist çağırışı irəli sürür. Keruak yaradıcılığında, xüsusi ilə "Jerarın xəyalları", "Dharma axtarışında səfillər" əsərlərində humanizm idealı fatalistik, dini-mistik xarakter daşıyır, o bitnik qardaşlığı qanunların təsvirində: həyatın müqəddəsliyinə ehtiram, insan inamlarına hörmət, ətraf aləmə, yaxınlara həssaslıq, insan ləyaqətini təhqir etmək qadağa bəyan edir. Bitniklər, o cümlədən Keruak yaradıcılığı, Amerikada mistik renessansın meydana gəlməsinə, səbəb olmuşdu. Keruak erkən və ən son dövr əsərlərində idealizə edilmiş keçmişin sadəlik, təbiilik, bəsitlik durumu üçün həsrət və nostalgiya, yaradıcılığın yetkin dövrü üçün isə müharibə və post müharibə dövründə itirilmiş dəyərlərin əvəzinə yeni dəyər və məna axtarışı ilə səciyyəvidir.

Qeyd etdiyimiz kimi bitniklər submədəniyyəti sonradan meydana gələn hippi və qotlar submədəniyyətlərə təsir etmişdir. Nəticədə demək olar ki, bitnik cərəyanın cəmiyyətə təsiri birmənalı olmayıb. Başqa submədəniyyətlərdə olduğu kimi, bitniklərın müxtəlif ideyaları magistral mədəniyyətə inteqrasiya edib, cəmiyyətdə yeniləşmə dinamikaya təkan verib. Lakin konformizm ilə mübarizə aparan bitniklərin bir qismi üsyankar ideyalarını bazar əmtəəyə çevirib, zəngin təbəqə sahibi oldular, digərləri isə asosial həyat tərzini azadlıq axtarışları ilə əvəz edərək, öz ideyalarının qurbanları oldular.

**Ədəbiyyat siyahısı:**


1. Ошиньш Э. Э. Метод и жанрпрозы Керуака. 1984.
2. https://cyberleninka. ru/article/n/lingvisticheskie-parametry-tipologizatsii-sovremennyh-molodezhnyh-subkultur/viewer
3. https://www. dissercat. com/content/molodezhnye-subkultury-osnovaniya-tipologizatsii
4. https://cyberleninka. ru/article/n/vidy-molodezhnoy-subkultury-preobladayuschie-v-sovremennoy-molodezhnoy-srede/viewer



**Тамилла Хикмет кызы Ахмедова**


## ОСНОВАНИЯ ТИПОЛОГИЗАЦИИ МОЛОДЕЖНОЙ СУБКУЛЬТУРЫ БИТНИКОВ


**Резюме:** Субкультуры молодежи занимают фундаментальное значение в социальной динамике культуры стран развитого капитализма и рыночной экономики. В становлении каждой молодежной субкультуры можно заметитьвлияние идей различных культур. Изучению молодежных субкультур посвящены фундаментальные исследования различных школ гуманитарного знания. На сегодняшний день в Азербайджане наряду с существованием субкультур молодежи несущих определенно локальный характер, влияние субкультур вестерна набирает все большее значение.

Таким образом, исследование субкультур включает в себя множество проблем, знание которых качественно влияет на молодежную политику, на социальное управление молодежью, профилактику асоциального и криминального влияния. В статье автор также исследует основания типологизации субкультуры битников, и творчество одного из основателей направления-Керуака.



**Ключевые слова:** Субкультуры молодежи, Керуак, основания типологизации, битники.

**Tamilla Hikmat gizi AhmadovaTHE**

**BASES OF TYPOLOGIZATION OF THE BEATNIK YOUTH SUBCULTURE**

Subcultures of youth are of fundamental importance in the social dynamics of the culture of the countries with developed capitalism and market economy. In theformation of each youth subculture, one can notice the influence of various ideas. Fundamental studies of various schools of humanities are devoted to the study of youth subcultures. Today, in Azerbaijan, along with the existence of subcultures ofyouth bearing a definitely local character, the influence of western subcultures is gaining more and more importance.

Thus, the study of subcultures includes many problems, the knowledge of whi- ch qualitatively affects youth policy, social management of youth, prevention of antisocial and criminal influence. In the article, the author also explores the groundsfor typologizing the Beatnik subculture, as well as the work of one of the Kerouac movement founders.

**Key words:** subcultures of youth, Kerouac, foundations of typology, beatniks

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**